


“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 2 noyabr 2024-cü il №83 (2894) https://mod.gov.az Qiymәti 30 qәpik


## İspaniya Hökumətinin Sədri Zati-aliləri cənab Pedro Sançezə

Hörmətli cənab Sədr,

Valensiya regionunda baş vermiş güclü daşqınlar nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər bizi olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İspaniya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 oktyabr 2024-cü il

## Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Zati-aliləri cənab Abdelmacid Tebbuna

Hörmətli cənab Prezident,
Əziz Qardaşım,

Əlcəzair Xalq Demokratik Respublikasının milli bayramı - İnqilab Gününün 70-ci ildönümü münasibətilə Sizi və Sizin simanızda qardaş xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

1954-cü ilin 1 noyabr günü qardaş Əlcəzair xalqının tarixinə qəhrəmanlıq səhifəsi kimi əbədi olaraq həkk olunmuş, müstəqillik, azadlıq uğrunda mübarizənin və yenilməz iradənin rəmzinə çevrilmişdir. Bir əsrdən artıq davam edən amansız müstəmləkəçilik siyasətinə, misli görünməmiş zorakılığa, insanlıq əleyhinə və müharibə cinayətlərinə məruz qalmasına baxmayaraq xalqınız heç bir zaman müstəqillik əzmini itirməmiş, böyük fədakarlığı, cəsarəti ilə, Vətən uğrunda canlarını fəda edən milyonlarla şəhidinin canı və qanı bahasına azadlığını əldə etmişdir.

Hazırda Azərbaycan-Əlcəzair münasibətlərinin inkişaf dinamikası məmnunluq doğurur. Biz bu əlaqələrin daha da genişlənməsinə, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə əməkdaşlığımızın yeni məzmunla zənginləşməsinə xüsusi önəm veririk.

Əminəm ki, ölkələrimiz arasında dostluq münasibətlərini möhkəmləndirmək, qarşılıqlı faydalı əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Əlcəzair xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 oktyabr 2024-cü il

*Reportaj*

# Qorunur torpağın sənin, ey Vətən, Yaşamaq əbəsdi sənsiz, ey Vətən!

*Vətən dərin mənaya malik kəlamdır. Vətən müqəddəs sözdür, Vətən anamızdır. Vətən bizim varlığımız, fəxrimiz, qürur mənbəyimizdir. Neçə-neçə igid oğullarımız bu Vətənin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın işğaldan azad olunması, eləcə də üçrəngli şanlı bayrağımızın ölkəmizin mavi səmalarında fəxarətlə dalğalanması naminə öz şirin canlarından keçib. Əbəs yerə deyilməyib ki, torpaq, uğrunda ölən varsa, Vətəndir!*



Bəs, vətənpərvərlik? Mahiyyəti Vətənə sevgi, məhəbbət və öz şəxsi maraqlarını bu yolda qurban verməyə əsaslanan emosional bağlılıqdır. Beşikdə ana laylasıyla başlayan vətənpərvərlik hissi zaman keçdikdə torpağa, elə-obaya bağlılığı, Vətənə əsgər olmağın ülviliyi haqqında düşüncələri özündə cəmləşdirir. Bu hissin tarixi kökündə öz ana torpağına, dilinə, milli-mənəvi dəyərlərinə və adət-ənənələrinə bağlanmış dövlətçilik durur. Vətəni sevmək və öz dövlətinin mənafeyini qorumaq da vətənpərvərlikdir.

Azərbaycan əsgəri bu iki amalla xidmət edib və bu gün də xidmətini şərəflə davam etdirir. Qəhrəman oğullarımızı məhz bu iki amal idi 2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Günnüt zəfərində, 2020-ci ilin Tovuz döyüşlərində, 44 günlük Vətən müharibəsində, antiterror və digər əməliyyatlarda qələbəyə aparan. Məhz bu iki amal idi düşmənin illərdir formalaşdırdığı mifi puç edən, onun ordusunun heç nəyə yaramadığını, rəşadətli Azərbaycan Ordusunun nəyə qadir olduğunu göstərən. Məhz bu iki amal idi qəhrəman oğullarımızı Vətən torpaqlarının azad olunması naminə ən ali məqama - şəhidlik zirvəsinə yüksəldən.

Bu gün də eyni amalın davamçıları azad edilmiş ərazilərimizdə xidmətini uğurla davam etdirir, Vətənimizin müdafiəsində mətin dayanırlar. Zəfərləri ilə tarix yazan igid oğullarımızın davamçıları ilə görüşə gedirik. İsti-soyuq demədən Ana Vətənimizi qoruyanlarla Vətəndən, vətənpərvərlikdən danışacağıq. Bizi bu soyuq havada bu söhbətlər isidəcək.

Nəhayət, döyüş növbətçiliyi aparan əsgərlərimizin yanına gəlib çatırıq. Bizi qarşılayan zabit Murad Xəlilzadə onların mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olduğunu, qalib Azərbaycan Ordusunun sıralarında xidmət etməkdən qürur duyduqlarını bildirir. “Onlar döyüş növbətçiliyini yüksək səviyyədə aparır, torpaqlarımızı göz bəbəkləri kimi qoruyurlar. Hər bir Vətən müdafiəçisi ona həvalə edilmiş bu müqəddəs vəzifənin öhdəsindən layiqincə gəlmək üçün əlindən gələni əsirgəmir”.

Ətrafa göz gəzdirə-gəzdirə yoxuşu asta-asta yuxarıya qalxırıq. Bütün bölmələrdə olduğu kimi, çətin coğrafi və dağlıq şəraitdə Azərbaycan əsgəri üçün müasir tələblər çərçivəsində yaradılan infrastruktur könül xoşluğu yaradır. Bu, Azərbaycan dövlətinin öz hərbi qulluqçularına göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Bu diqqət və qayğı onların nümunəvi xidmət etmələrinə müsbət təsir göstərir.

Nəhayət, şəxsi heyətin yanına çatırıq. Hər birinin yüksək döyüş ruhunda olduğunun şahidi oluruq. İlk həmsöhbətimiz gizir Ülvi Alməmmədli doğma Vətənimizin müdafiəsində dayanmaqdan qürur duyduğunu bildirir. Hərbi qulluqçumuz deyir ki, döyüş növbəsində dayanan əsgər hər şeydən öncə öz Vətənini sevməli və vətənpərvər olmalıdır. Çünki Vətənini sevməyən, vətənpərvər olmayan şəxs nümunəvi xidmət edə bilməz.

Gizir Ü.Almәmmәdli çətin relyefli dağlıq şəraitdə döyüş növbətçiliyi aparmağın son dərəcə məsuliyyətli olduğunu qeyd edir. "Əsgərlərimiz məsuliyyətli, nizam-intizamlı, vətənpərvər gənclərdirlər. Onlar üzərlərinə düşən məsuliyyəti yaxşı dərk edir və bilirlər ki, bu gün müqəddəs bir vəzifə - Vətən torpaqlarının müdafiəsi onlara həvalə edilib. Şəhidlərimizin qanı, canı bahasına azad edilmiş tarixi torpaqlarımızı qorumağın məsuliyyətini dərindən başa düşən şəxsi heyət verilən tapşırıqların öhdəsindən bacarıqla gəlir".


**(Ardı 4-cü səhifədə)**





5-ci səhifədə


“Hazırlanan yeməklərdə aşpazlarımızın sevgi və qayğısı hiss olunur”




6-cı səhifədə


“Fiziki hazırlıq güclü ordu üçün əsas şərtdir”




7-ci səhifədə


“Səliqəli geyim əsgərin yaraşığıdı”

# Azərbaycan ilə Mərakeş arasında hərbi əməkdaşlıq haqqında saziş imzalanıb







*Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Mərakeş Krallığının Hökumət Başçısı yanında Milli Müdafiə Administrasiyası üzrə səlahiyyətli naziri Abdellatif Ludiyinin dəvəti ilə Mərakeşdə işgüzar səfərdədir.*





Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində general-polkovnik Zakir Həsənov mərakeşli həmkarı ilə görüşüb.

Azərbaycan Respublikasının müdafiə naziri "Mərakeş Aviaşou 2024" sərgisinə dəvətə görə həmkarına təşəkkür edib.

Görüşdə Azərbaycan ilə Mərakeş arasında hərbi, hərbi-texniki əlaqələrin inkişaf perspektivləri müzakirə edilib, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Görüşün sonunda Azərbaycan Hökuməti adından müdafiə naziri mərakeşli həmkarı ilə "Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında müdafiə sahəsində hərbi əməkdaşlıq haqqında Saziş" imzalayıb.

# Azərbaycan müdafiə naziri "Mərakeş Aviaşou 2024" sərgisinin açılış mərasimində iştirak edib







*Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun Mərakeşə işgüzar səfəri davam edir.*

Mərakeş Krallığının Hökumət Başçısı yanında Milli Müdafiə Administrasiyası üzrə səlahiyyətli naziri Abdellatif Ludiyinin dəvəti ilə bu ölkədə işgüzar səfərdə olan general-polkovnik Zakir Həsənov "Mərakeş Aviaşou 2024" sərgisinin təntənəli açılış mərasimində iştirak edib.

Müxtəlif dövlət rəsmiləri və beynəlxalq şirkətlərin nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə Mərakeş Krallığının hökumət başçısı və digər rəsmilər çıxış ediblər.

Çıxışlardan sonra "Mərakeş Aviaşou 2024" sərgisi ziyarət olunub.

General-polkovnik Zakir Həsənov dünyanın aparıcı beynəlxalq şirkətlərinin təmsil olunduğu sərgidə təqdim edilən hərbi aviasiya, qlobal aeronavtika və kosmik sənaye innovasiyaları ilə tanış olub.

Sərgi çərçivəsində müdafiə sənayesindəki texnoloji yeniliklər, davamlı strategiyanın inkişaf etdirilməsi, pilotsuz uçuş aparatlarının təkmilləşdirilməsi və digər mövzularda panel müzakirələr aparılıb.

**Müdafiə Nazirliyinin materialları əsasında**

# Hərbi attaşelər Bakı Beynəlxalq Dəniz Ticarəti Limanında olublar



*Müdafiə nazirinin 2024-cü il üçün təsdiq etdiyi fəaliyyət planına əsasən, xarici dövlətlərin ölkəmizdə akkreditə olunmuş hərbi attaşeləri Bakı Beynəlxalq Dəniz Ticarət Limanını ziyarət ediblər.*



Müdafiə Nazirliyi xəbər verir ki, tədbirdə 12 ölkədən 15 hərbi attaşelik aparatının nümayəndəsi iştirak edib.

Ziyarətçilərə brifinq təqdim olunub. Brifinqdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tarixi, cari fəaliyyət istiqamətləri, əməkdaşlıq sahələri və perspektiv planları barədə məlumatlar verilib, qonaqları maraqlandıran suallar cavablandırılıb.

Sonda qonaqlar limanın ərazisindəki infrastruktur və obyektlərlə tanış olublar.

# Hərbi Prokurorluqda əməliyyat müşavirəsi keçirilib

Hərbi Prokurorluqda rəhbər vəzifəli şəxslərin iştirakı ilə 2024-cü ilin birinci yarımilində respublikanın Hərbi Prokurorluq orqanlarında qeydə alınmış qəsdən adamöldürmə, qəsdən adamöldürməyə cəhd və özünüöldürmə həddinə çatdırma cinayətləri üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyin vəziyyətinin, cinayət hadisələrinin baş verməsinin səbəb və şəraitinin, həmin cinayətlər üzrə istintaq təcrübəsi və məhkəmə nəticələrinin ümumiləşdirilməsinin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib. Respublika Hərbi Prokurorluğunun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz və unudulmaz xatirələrini bir dəqiqəlik sükutla anıb, döyüşlərdə yaralananlara şəfa diləyiblər.



Əməliyyat müşavirəsində çıxış edən Baş prokurorun müavini - hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirib ki, Ulu Öndər Heydər Əliyevin mükəmməl siyasətini dövrün tələblərinə uyğun reallaşdıran Prezident İlham Əliyevin hərtərəfli bilik və bacarığı, qətiyyəti, yorulmaz fəaliyyəti ilə xalqın müdrikliyinin və əzmkarlığının vəhdəti sayəsində dövlətimizin daha da qüdrətlənməsi və əhalinin rifahının bütün istiqamətlər üzrə yaxşılaşdırılması prosesinin davamlılığı uğurla təmin olunur. O, həmçinin vurğulayıb ki, Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 21 ildə əldə edilən misli görünməmiş uğurlara Birinci vitse-prezident Mehriban Əliyevanın zəngin fəaliyyəti də töhfələr verməkdədir.

Bundan sonra məruzəçilər - İstintaq İdarəsinin rəisi, ədliyyə polkovniki Bəhruz Əhmədov və Hərbi prokurorluqlarda istintaqa nəzarət şöbəsinin rəisi, ədliyyə polkovniki Hümmət Məmmədov əməliyyat müşavirəsinin həsr olunduğu məsələlər barədə çıxış edərək, bununla bağlı hesabat dövründə görülmüş işlərdən danışıb. Həmin cinayətlərin qarşısının alınması ilə əlaqədar hərbi prokurorluq orqanlarının və aidiyyəti qurumların qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün görülməli olan tədbirlər barədə məlumat veriblər. Məruzələr ətrafında geniş fikir mübadiləsi aparılıb.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev deyib ki, Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrimizin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, şəxsi heyəti peşəkar hərbi qulluqçularla komplektləşdirilib, hərbçilərin nəzəri bilik və peşə, həmçinin mənəvi-psixoloji hazırlıq səviyyəsi artırılıb, qeyd olunanlar nizam-intizamın və qanunçuluğun daha da möhkəmlənməsini şərtləndirib.

Sonra hərbi prokuror Xanlar Vəliyev əməliyyat müşavirəsinin həsr olunduğu cinayətlərin istintaq və məhkəmə təcrübəsinin mütəmadi olaraq ümumiləşdirilərək Respublika Hərbi Prokurorluğunun kollegiyalarında Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə müzakirə edilməklə, kollegiyaların qərarlarına əsasən, həmin cinayətləri doğurmuş səbəb və şəraitin aradan qaldırılması üçün zəruri qabaqlayıcı tədbirlərin görülməsinə dair aidiyyəti qurumların rəhbərlərinə məlumat məktubları, komandanlıqlara təqdimatlar, ərazi hərbi prokurorlarına icmal məktublar göndərilməsinin, həmçinin hər ilin əvvəlində tərtib edilmiş birgə tədbirlər planlarına əsasən nizam-intizamın, qanunçuluğun möhkəmləndirilməsi və cinayətkarlığa qarşı mübarizədə birlikdə görülən digər işlərin, cinayətlərin, o cümlədən bu qəbildən olan cinayətlərin qarşısının alınmasındakı xüsusi rolunu qeyd edib.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev xüsusi vurğulayıb ki, bütün bunların nəticəsində 2023-cü ilin birinci yarısı ilə müqayisədə 2024-cü ilin eyni dövründə qeydə alınmış qəsdən adamöldürmə cinayətləri 50 faiz, özünüöldürmə hadisələri 80 faiz azalıb, qəsdən adamöldürməyə cəhd cinayətləri isə, ümumiyyətlə, qeydə alınmayıb.

Əməliyyat müşavirəsinə yekun vuran hərbi prokuror Xanlar Vəliyev diqqətə çatdırıb ki, cinayət hadisələrinin, o cümlədən bu qəbildən olan cinayətlərin qarşısının alınması istiqamətində Hərbi Prokurorluğun aidiyyəti qurumlarla birgə fəaliyyəti bundan sonra da uğurla davam etdiriləcək.

# Azərbaycanın ərazi bütövlüyünün üstündə yad yellər əsməyəcək!

Ermənistan haqsız ərazi iddiaları ilə Azərbaycana qarşı elan etmədən müharibəyə başladı. Bu müharibə işğalçılıq müharibəsi idi, işğalçı dövlət havadarlarının həm siyasi, həm də hərbi dəstəyindən bəhrələnirdi. Ona görə də düşmən nə BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl edirdi, nə də ATƏT-in Minsk Qrupuna daxil olan dövlətlərin tövsiyələrini yerinə yetirirdi. Regionda mövcud status-kvonu saxlamağa çalışır, müxtəlif təyinatlı və miqyaslı təxribatlar törətmək istəyirdi, Azərbaycan Ordusunun hissələri isə bu təxribatların qarşısını qətiyyətlə alırdı...

Ermənistan silahlı qüvvələri 2020-ci il sentyabrın 27-də də genişmiqyaslı təxribatlar məqsədilə hücuma başladı. Azərbaycan Ordusunun hissələri bu hücumun da qarşısını aldı, Azərbaycan Respublikası Prezidentinin döyüş əmri ilə əks-hücuma keçdi. Bu əmr İkinci Qarabağ müharibəsinin başlanğıcı oldu...

İşğal müddətində mühəndis-istehkam sədlərini möhkəmləndirən, təkmilləşdirən düşmən ciddi müqavimət göstərirdi. Ona elə gəlirdi ki, qurduğu sədd keçilməz olacaq. Unutmuşdu ki, heç bir maneə Azərbaycan Ordusunun hücumunun qarşısını kəsə bilməz. Döyüşçülərimiz düşmənin sədlərini dağıtdı, döyüşə-döyüşə irəlilədi, ilk qələbələr qazandı. Döyüşlərin birinci günü Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri, Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər işğaldan azad edildi. Bu qələbələr Azərbaycan əsgərinin döyüş əzmini, qələbə ruhunu yüksəltdi. Sonrakı döyüşlərdə düşmən daha



böyük itkilərə məruz qaldı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xalqa müraciətlərindən birində dedi: "Biz haqlıyıq, biz öz torpaqlarımızda vuruşuruq, öz torpaqlarımızda şəhidlər veririk. Bizim savaşımız müqəddəs savaşdır".

Azərbaycan Ordusu döyüşə-döyüşə mühüm qələbələr qazanırdı, düşməni sıxışdırırdı, geri çəkilməyə məcbur edirdi. Ermənistanın apardığı ədalətsiz müharibəyə qarşı Azərbaycanın əks-hücum əməliyyatı Vətən müharibəsi kimi davam etdirilirdi. Bu müharibə xalqın müharibəsi kimi dünya dövlətlərinin də siyasi marağını özünə çəkmişdi. Azərbaycanda hamı - yuxarı sinif şagirdləri də, tələbələr də, Birinci Qarabağ müharibəsi iştirakçıları da, ... döyüşlərə getmək istəyirdilər. Vətən müharibəsində xaricdə yaşayan azərbaycanlılar da döyüşlərə can atırdılar. Onlara da ehtiyac olmadığı deyilirdi, onlar da özlərini ruhən döyüşənlərin sırasında hiss edirdilər. Mən həmin vaxtlarda Türkiyədə hərbi akademik təhsil alırdım. Müharibə başlayanda Müdafiə Nazirliyinə müraciət etdim, qayıtmağıma icazə vermədilər. Onda Türkiyə Ordusunun generalı Mehmet Orxan paşanın məsləhəti ilə hər gün dərslərdən əvvəl 30-dan çox dövləti təmsil edən bütün dinləyicilərə müharibə haqqında ətraflı brifinq təqdim edirdim. Bu tədbir dinləyicilərə Azərbaycan gerçəklikləri haqqında məlumat-bülleteni əvəzləyirdi. Onların hamısı Azərbaycanın ədalətli müharibəsini dəstəkləyirdi. Bu, mənim qürurumu kükrədirdi.

Ermənistan Gəncəyə ballistik raket atanda bütün dinləyicilər faciədə həlak olanlara görə mənə başsağlığı verdilər, bu başsağlığını həm öz adlarından, həm də təmsil etdikləri dövlətin silahlı qüvvələri adından ordumuzun rəhbərliyinə çatdırılmasını xahiş etdilər. Həmin gün mən də qəhərli anlar yaşadım, mənə görə dinləyici yoldaşlarım da. Ona görə deyirlər ki, dərd insanları doğmalaşdırır....

Noyabrın 8-də dan yeri söküləndən az sonra kürəyimdə neçə-neçə qollar çarpazlaşdı, çiynimdə neçə-neçə əl qardaş təmasına döndü. Etiraf edirəm ki, mən azərbaycanlı olmağın qürurunu həmin anlarda yaşadığım qədər heç zaman yaşamamışdım. Şuşa işğaldan azad edilmişdi! Özü də necə! - Şuşa döyüşlərinin getdiyi vaxt Xankəndidə olan xarici jurnalistlərdən biri ermənilərin düşdüyü vəziyyəti belə təsvir edirdi: "Şuşanı müdafiə edənlər pərən-pərən düşüblər. Hərbi təcili yardım maşınlarında onlarla yaralı qan içində Xankəndi xəstəxanasına daşınır. Qalan döyüşçülər yorğun halda yol boyu hərbi geyimlərini çıxarıb ataraq dağdan enirlər. Təcili yardım maşınları aramsız olaraq gedib-gəlir. Avtomobildə yaralı əsgərlər bir-birinin üstünə qalaqlanıb. Onların aldığı xəsarətlər əlbəyaxa döyüşlər getdiyinin sübutudur".

Noyabrın 10-da üçtərəfli bəyanat imzalandı. Bu sənəd Azərbaycanın qalibiyyət, Ermənistanın isə məğlubiyyət sənədi idi. Azərbaycan Ordusu tarixi Zəfər qazanmışdı...

2023-cü ilin 19-20 sentyabr tarixlərində Azərbaycan Ordusunun həyata keçirdiyi antiterror əməliyyatı da qələbə ilə nəticələndi. Ağdərəyə, Xocalıya, Xankəndiyə sığınan Ermənistan silahlı qüvvələrinin qalıqları, Ermənistandan idarə edilən qeyri-qanuni silahlı dəstələr təslim oldu. Bu, tarixi Zəfərin məntiqi, siyasi-hərbi davamı və nəticəsi idi. Azərbaycanın ərazi bütövlüyü tam bərpa olundu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2023-cü il noyabrın 8-də Xankəndidə keçirilən hərbi paradda çıxışında dedi: "Bu il aprelin 23-də biz Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədini nəzarətə alaraq ərazi bütövlüyümüzü tam bərpa etdik və sentyabrın 20-də dövlət suverenliyini tam bərpa etdik. Bununla separatçıların kitabı bağlandı. Artıq Azərbaycanda separatçılığa yer olmayacaq. Azərbaycan dövləti bu gün bütün əraziyə nəzarət edir..."

Tarixi Zəfərdən sonra qoşunlarda ordu quruculuğu yeni mərhələdə böyük məsuliyyətlə davam etdirilməkdədir...

Azərbaycan Ordusunun tarixi Zəfərindən dörd il keçir. Bu qürur Vətənə bağlı olduğu üçün, torpaqla bağlı olduğu üçün, Azərbaycanın ərazi bütövlüyünü tam bərpa etdiyi üçün zaman sərhədinə sığmayacaq. Bu qürur deyir ki, Azərbaycanın ərazi bütövlüyünün üstündə heç zaman yad yellər əsməyəcək...

**Polkovnik-leytenant**
**Azər ABDULLAYEV**
**"N" hərbi hissəsi**

## XİN: Fransa bölgədə dayanıqlı və həqiqi sülh quruculuğunda maraqlı olmadığını bir daha nümayiş etdirdi

Diplomatik etiket qaydalarına əməl etməyi bacarmayan Fransanın Ermənistandakı səfiri Olivye Dekotinyinin Ermənistan-Fransa münasibətlərindən daha çox Azərbaycan əleyhinə qarayaxma kampaniyasına köklənməsi, ilk növbədə, Fransa xarici siyasətinin uğursuzluğunun nəticəsidir.

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Fransanın Ermənistandakı səfiri Olivye Dekotinyinin Ermənistanın "Hetq" media qurumuna müsahibəsində Azərbaycan əleyhinə səsləndirdiyi əsassız iddialar barədə yerli medianın sualına cavab verərkən bildirib.

"Müsahibədə Azərbaycan ərazisində işğala və separatçılığa son qoyan tədbirlərin hədəf alınması, Beynəlxalq Ədalət Məhkəməsinin qərarlarına yanlış istinadlar, Ermənistanın "yarımçıq sülh" fikirlərini dəstəkləyən açıqlamalar və bir sıra digər absurd yanaşmalar, ilk növbədə, Fransa tərəfinin reallıqları necə təhrif etdiyini, bölgədə dayanıqlı və həqiqi sülh quruculuğunda maraqlı olmadığını bir daha nümayiş etdirir.

Fransanın bölgədə eskalasiyanı davam etdirməyə yönələn davranışları və təxribatları bu ölkənin həm münaqişə, həm də postmünaqişə dövründə güddüyü niyyətin və apardığı siyasətin əsl mahiyyətini sübut edib", - deyə Ayxan Hacızadə bildirib.

## Şəhidin xatirəsinə həsr olunmuş kitabın təqdimat mərasimi keçirildi

*Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində Vətən müharibəsi şəhidi baş leytenant Cəmil Nəcəfovun xatirəsinə həsr olunmuş yazıçı-araşdırmaçı Rüfət Hüseynlinin "Şərəfli zabit ömrü" adlı kitabının təqdimat mərasimi keçirildi.*



Mərasimdə ictimaiyyətin nümayəndələri, şəhidin ailə üzvləri, yaxınları və döyüş yoldaşları iştirak etdilər.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra şəhid C.Nəcəfova həsr olunmuş videoçarx nümayiş etdirildi.

Mərasimdə şəhid zabitin həyat və döyüş yolundan danışılaraq qeyd olundu ki, Cəmil Nəcəfov 24 iyun 1993-cü ildə Bakı şəhərində dünyaya göz açıb. 1999-2007-ci illərdə Binəqədi rayon H.Hüseynov adına 83 nömrəli məktəb-liseydə təhsil alıb. Orta məktəbi bitirən Cəmil Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olub. Liseyi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul olub və hərbi məktəbi müvəffəqiyyətlə bitirərək Azərbaycan Ordusunda xidmətə başlayıb.

C.Nəcəfov 2016-cı ilin Aprel döyüşlərində, 2020-ci il sentyabrın 27-dən Ermənistanın işğalında olmuş tarixi ərazilərimizin azad edilməsi üçün başlayan Vətən müharibəsində iştirak edib. 10 oktyabr 2020-ci il tarixində Cəbrayıl istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olub.




Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi və işğal olunmuş ərazilərin azad olunması zamanı göstərdiyi igidliyə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, Cəmil Nəcəf oğlu Nəcəfov ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Mərasimdə çıxış edənlər Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı tarixi Zəfərin əhəmiyyətindən, ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə igid oğullarımızın göstərdiyi şücaət nümunələrindən danışdılar. Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda şəhid olanların şərəfli ömür və döyüş yolundan söz açanlar bildirdilər ki, onların vətənpərvərliyi və mübarizliyi gənclərə örnək olacaq, əziz xatirələri xalqımızın qəlbində daim yaşayacaqdır.

Şəhidimizin ailə üzvləri və yaxınları göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

Mərasimdə şəhidlərimizə həsr olunan şeirlər, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri tərəfindən qəhrəmanlığı, vətənpərvərliyi tərənnüm edən musiqilər səsləndirildi.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

## Qorunur torpağın sənin, ey Vətən, Yaşamaq əbəsdi sənsiz, ey Vətən!



**(Əvvəli 1-ci səhifədə)**

Sonra döyüş növbətçiliyindən qayıdan əsgərlərdən Rəhim Seyfullayev ilə həmsöhbət oluram. Lənkəran şəhərindən ordu sıralarına çağırılan Rəhim xidmət müddətinin böyük hissəsini artıq başa vurub. O deyir ki, insan hərbi xidmətə gəldikdən sonra həyatı daha dərindən dərk etməyə başlayır. "Xidmət dövründə Vətənə sevgim, bağlılığım daha da artdı. Həmişə çalışmışam ki, Vətənə olan övladlıq borcumun öhdəsindən layiqincə gəlim. Düşünürəm ki, komandirlərimizin köməkliyi ilə bunu bacarmışam".

Əsgər Kənan Abışov döyüş növbəsində olduğu zaman qarşı tərəfin bütün fəaliyyətini müşahidə etdiyini, hər hansı bir hadisə baş verərsə, dərhal komandirlərinə məlumat verdiyini bildirir. "Artıq müharibə başa çatıb. Buna baxmayaraq, hərbi biliklərimizi daim artırır, bizə təhkim olunan silahın sirlərini dərindən mənimsəyirik. Çünki baş verə biləcək hər hansı bir təxribat cəhdinin qarşısını almağa, igid oğullarımızın döyüş yolunu davam etdirməyə, yeni salnamələr yazmağa və ərazi bütövlüyümüzü qorumağa daim hazır olmalıyıq".

"Döyüş mövqeyimizin dağlıq ərazidə yerləşməsinə baxmayaraq bizim nümunəvi xidmət etməyimiz üçün burada hər cür şərait yaradılıb. Yemək-içməyimiz, məişət şəraitimiz ürəkaçandır, bütün növ təminatla da təmin olunmuşuq. Komandirlərimizin diqqəti və qayğısı, doğma münasibəti sayəsində hərbin sirlərinə alışır, Vətənimizi qoruyuruq. Onlar bizə döyüş vərdişləri ilə yanaşı, igidlik, mərdlik, vətənpərvərlik kimi mənəvi dəyərləri aşılayır, döyüşlərdə hərbçilərimizin göstərdiyi qəhrəmanlıq nümunələrindən söhbət açırlar. Biz də öz növbəmizdə göstərilən etimadı və inamı doğrultmağa çalışır, döyüş növbətçiliyində ayıq-sayıq xidmət aparır, Vətənimizin keşiyində dayanmaqdan qürur duyuruq", - digər həmsöhbətim əsgər Əli Musayev belə deyir.

Əsgərlər Elyar Əliyev, Rəhman Əlibəyov və digərləri Vətənimizin müdafiəsi kimi müqəddəs vəzifənin onlara həvalə olunduğundan qürur duyduqlarını bildirirlər.

Vətən sevgisi ancaq sözdə olmalı deyil. Vətəni qorumaq və onun uğrunda canından keçməyə hazır olmaq da bu sevginin bir təzahürüdür. Olduğu sahədən asılı olmayaraq hər bir azərbaycanlının Vətənimiz qarşısında bir çox vəzifələri var. Bu vəzifələrin içərisində ən vacibi və müqəddəsi isə Vətəni, torpağı qorumaqdır. Bu gün ordumuzun sıralarında mətinlik, qəhrəmanlıq kimi mənəvi keyfiyyətlərə malik gənclər bu vəzifənin öhdəsindən bacarıqla gəlirlər.

Zirvələrdə qartaltək məskunlaşan Vətən müdafiəçilərimizlə xoş əhvalla, könül xoşluğu ilə sağollaşıb geriyə qayıdırıq. Özüm-özümə zümzümə edirəm:

*Qorunur torpağın*
*sənin, ey Vətən,*
*Yaşamaq əbəsdi*
*sənsiz, ey Vətən!*

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

## Mərdlik, cəsurluq, vətənpərvərlik yolu



Ümummilli Lider Heydər Əliyev uzaqgörənliklə demişdi: "Hər bir peşə şərəflidir. Ancaq Vətəni qorumaq peşəsi hər bir peşədən üstündür, şərəflidir". Ulu Öndərin illər öncə müraciəti kimi səslənən çağırışına yüzlərlə vətənpərvər gənc böyük həvəslə qoşuldu, peşə seçimində daha çox hərbçi peşəsinə üstünlük verdi. Vətənimizin müdafiəsi, qorunması üçün hərbçi olmağı qarşılarına məqsəd qoydular. Fədakarlığı, vətənpərvərliyi ilə seçilən Amid Alim oğlu Hüseynov da bu yolu seçənlərdən oldu.

Amid Hüseynov Göygöl rayonunun Şəhriyar kəndində təhsil alıb. Vətənpərvər ruhda böyüyüb. Hərb peşəsinə orta məktəb illərindən böyük maraq göstərib. Vətənimizə, xalqımıza qarşı aparılan soyqırımı siyasəti, düşmən tərəfindən elan olunmamış müharibənin dəhşətləri onu da həmişə düşündürüb. El-obada müharibənin ağrıacısını həmişə hiss edib. Ordu sıralarında müddətli həqiqi hərbi xidmətini müvəffəqiyyətlə başa vurub. Əsgər kimi xidmətdə həmişə fərqlənib. Komandanlığın rəğbətini qazanıb, müsəlləh əsgər kimi tanınıb. Əsgərlik həyatını mətinlik, mərdlik, vətənpərvərlik məktəbi kimi qiymətləndirən Amid daha sonra xidmətini müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçu kimi davam etdirib. Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində nümunəvi xidməti ilə seçilib.

27 sentyabr 2020-ci ildə Ermənistan silahlı qüvvələri bütün cəbhə boyu yenidən genişmiqyaslı təxribat törətdi. Buna cavab olaraq Müzəffər Ali Baş Komandan ölkəmizin müdafiəsi və işğalda olan torpaqlarımızın azad edilməsi üçün əks-hücum əmri verdi. İllərlə bu əmri gözləyən ordumuzun şəxsi heyəti ilk gündən düşmən üzərində üstünlük qazandı. Düşmənin ərazilərimizdə yaratdıqları istehkam sədlərini, döyüş mövqelərini və vasitələrini, canlı qüvvəsini, hərbi texnikasını məhv edərək torpaqlarımızı işğaldan azad etdi. Vətən müharibəsində Amid Hüseynovun xidmət etdiyi hərbi hissənin şəxsi heyəti də qarşıya qoyulan döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirdi. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Amid Hüseynov "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif olundu.

Xalqımızın tarixinə Zəfər salnaməsinin yazılmasında xidməti olanların sırasında olmağından qürur hissi keçirdiyini bildirən Amid Hüseynov "N" hərbi hissəsində xidmətini davam etdirir. Ona etimad göstərilərək "gizir" hərbi rütbəsi verilib. Tapşırıqlara həmişə məsuliyyətlə yanaşan gizir Amid Hüseynov göstərilən etimadı doğrultmağa çalışır.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# “Hazırlanan yeməklərdə aşpazlarımızın sevgi və qayğısı hiss olunur”



*Azərbaycan Ordusunun bu gün dünyanın ən güclü orduları sırasında yer alması hər bir vətəndaş üçün qürurverici faktordur. Orduda xidmət edən şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı onların sosial-məişət şəraiti ilə sıx bağlıdır. Son dövrlərdə ordumuzda sosial rifahın artırılması üçün atılan addımlar əsgərlərin döyüş ruhunun yüksəldilməsinə mühüm töhfə verir.*

"N" hərbi hissəsində aparılan islahatlar nəticəsində Azərbaycan Ordusunda xidmət müasir tələblər əsasında qurulub. Biz hərbi hissəyə daxil olanda nahar vaxtı idi. Əsgərlər sıra addımları ilə yeməkxanaya daxil olurdular. Müasir yeməkxana avadanlıqları ilə təmin olunan inzibati binanın girişində hərbi qulluqçuların əl-üz yumaları üçün təyin olunmuş yer, təmiz və geniş yeməkxana göz oxşayırdı.

Gizir Səlim Xəlilov günün menyusu haqqında məlumat verərək dedi: "Bugünkü nahar yeməyində əsgərlərə düşbərə, vermişel, kartof qızartması və tərəvəz salatı təqdim olunur. Onların soyuq havaya qarşı immunitetini möhkəmləndirmək üçün vitamin, meyvə və sarımsaq da verilir. Yeməklərimizdə milli xörəklər üstünlük təşkil edir".

Gizir S.Xəlilov yeməklərin saxlanma şəraitini və əsgər norması ilə bağlı da ətraflı məlumat verdi. O, ərzaqların müasir soyuducu avadanlıqlar vasitəsilə müxtəlif kameralarda müvafiq temperaturlarda saxlandığını vurğuladı. Həmçinin gündəlik normaya əsasən yeməklərin təcrübəli aşpazlar tərəfindən hazırlandığını da qeyd etdi.

Əsgərlər növbə ilə yeməklərini götürüb yerlərinə əyləşdikdən sonra fürsət tapıb səliqəli formalı və gülərüzlü aşpazlarla da söhbətləşdik. İlk həmsöhbətimiz aşpaz Gülər Əliyeva oldu.

"Əsgərlərimiz Vətənimizin müdafiəçiləridirlər. Onları ləziz qidalar ilə təmin etmək bizim borcumuzdur. Əlimizdən gəldiyi qədər dadlı yeməklər bişirməyə çalışırıq ki, övladlarımız yaxşı qidalansınlar, sağlam olsunlar. Nə qədər sağlam olsalar, Vətənimizi o qədər inamla qoruyarlar. Vətən qoruyucularına xidmət etməkdən hər birimiz qürur duyuruq. Biz hərbi hissəyə daxil olduqda özümüzü həm də əsgərlərimizin döyüş yoldaşları kimi hiss edirik", - Gülər xanım dedi.

Aşpazlar Firəngiz Həsənova və Nəzrin Süleymanova, çalışdıqları işin məsuliyyətli olduğu qədər qürurverici bir vəzifə olduğunu da vurğuladılar. "Hərbi yeməkxanada çalışmaq bizim üçün yalnız bir peşə deyil, həm də böyük bir qürur mənbəyidir. Bu yeməkxanada hər gün yüzlərlə hərbçinin sağlam və balanslı qidalanmasını təmin etmək bizim əsas vəzifəmizdir. İstifadə olunan məhsulların keyfiyyəti və təzəliyi bizim üçün birinci dərəcəli əhəmiyyət kəsb edir. Hər gün ən yaxşı məhsullardan istifadə edərək əsgərlərimiz üçün dadlı və qidalandırıcı yeməklər hazırlayırıq. Hər yeməkdə əsgərlərimizin sağlamlığına və enerji ehtiyaclarına xüsusi diqqət yetiririk. Onların hərbi xidmətlərini rahat və güclü şəkildə davam etdirmələri üçün qidalanma çox vacibdir. Yeməklərin hazırlanmasında gigiyenik qaydalara da ciddi riayət edilir. Yeməkləri hazırladığımız mətbəx avadanlıqları müasir və yüksək keyfiyyətlidir. Bu avadanlıqlar yeməklərin təmiz və təhlükəsiz şəkildə hazırlanmasını təmin edir. Əsgərlərimiz yeməkləri sevgi və iştahla yeməsi bizə könül xoşluğu verir. Onların məmnuniyyəti bizim üçün ən böyük mükafatdır. Yeməkxanamızda çalışan bütün aşpazlar və personal hər gün əsgərlərimizin rifahı üçün əllərindən gələni edirlər", - deyə aşpazlar bildirdilər.



Nahar edən əsgərlərimizin də fikirlərini qələmə almaq üçün onlarla söhbətləşdik. Əsgər Fərzəli Talıbov yeməkxanada təqdim edilən yeməklərin zənginliyindən danışdı: "Hərbi xidmətə başladığım ilk gündən yeməkxanamızda yaradılan şərait və təqdim olunan qidaların keyfiyyətindən çox məmnunam. Burada yaradılan şəraitin yüksək səviyyədə olması bizim qidalanmamızda çox mühüm rol oynayır. Bişirilən yeməklər, həqiqətən, dadlı və qidalandırıcıdır. Hər gün müxtəlif və zəngin menyu ilə qarşılaşırıq. Gündəlik menyuda təqdim olunan yeməklər arasında milli mətbəximizin dadlı təamları da yer alır. Bu bizə evdəki yeməklərin dadını xatırladır və bizi daha da ruhlandırır".

"Hazırlanan yeməklərdə aşpazlarımızın sevgi və qayğısı hiss olunur. Hər birimiz yeməklərdən çox məmnunuq və aşpazlarımıza təşəkkür edirik. Onların zəhməti və sevgisi bizim qidalanmamızın keyfiyyətini təmin edir və bizə yüksək döyüş ruhu verir", - əsgər Sahil Eyvazlı dedi.

Hərbi hissənin yeməkxanasında qarşılaşdığımız xoş mənzərə, ürəkaçan fikirlər bir daha sübut etdi ki, hərbi qulluqçuların sosial-məişət şəraitinin yüksəldilməsi daim nəzarətdə saxlanılır. Əsgər yeməkxanasında çalışan personal hərbçilərimizi doğma övladlarından ayırmır. Onların sayəsində döyüşçülərimiz dadlı və keyfiyyətli, eyni zamanda, sağlam tərkibli xörəklərlə qidalanırlar.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# Ağacəkmə aksiyasında hərbçilər də iştirak ediblər

*Azərbaycan başəri dövlət kimi dünyəvi proseslərdən kənarda qalmır, daha qlobal məsələlərdə təşəbbüskar da olur ki, bu da dünyanı düşündürən problemlərin həlli baxımından əhəmiyyətli olur. 2023-cü ilin 25 dekabrında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması haqqında Sərəncam imzaladı. Bu Sərəncam vətəndaşlıq məsuliyyəti ilə, digər dövlətlərdə böyük ehtiramlarla qarşılandı. İşğaldan azad edilmiş Qarabağın və Şərqi Zəngəzurun, Naxçıvanın yaşıl enerji zonası elan edilməsi də bu baxımdan əhəmiyyətlidir.*

Azərbaycanda noyabr ayında yüksək məsuliyyətli, genişmiqyaslı bir tədbir də keçiriləcək - Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP29). Dünya miqyaslı prosesin yaratdığı narahatlığın həllinə yönəldilmiş bu beynəlxalq konfrans ərəfəsində Azərbaycanda genişmiqyaslı ağacəkmə aksiyası keçirilir. Bu aksiya ətraf mühitin və ekoloji tarazlığın qorunmasına, yaşıllıqların artırılmasına dəstək verilməsi, eləcə də vətəndaşlar arasında ekoloji mədəniyyətin, təbiətə qayğı hissinin təbliğ edilməsi məqsədi daşıyır.



Hər aksiyanın məqsədi olur. Bu tədbirin başlıca məqsədi ağac əkməklə məhdudlaşmır, aksiya həm də respublikamızda ekoloji tarazlığın möhkəmləndirilməsində iştirak etmək, ətraf mühiti daha etibarlı vasitələrlə qorumaq, Azərbaycanda keçirilən və keçiriləcək ekoloji yönümlü tədbirlərin iştirakçısı olmaq, mütəxəssislərin dediyi kimi, ekoloji maarifləndirmə vasitəsi ilə gənclərin və yeniyetmələrin düşüncələrində yaşıl dünyanın modelini yaratmaq, bu modelin gerçəkliyə çevrilməsini tezləşdirmək və s. bu kimi gərəkli niyyətlərdir.

"Yaşıl dünya naminə həmrəylik ili" devizi altında keçirilən ağacəkmə aksiyası respublika miqyaslı tədbir olduğu üçün bütün rayonları əhatələyib. Bəşəri niyyətli bu tədbirdə respublikamızın bütün vətəndaşları fəal iştirak edirlər. Bu aksiya Ağcabədidə də fəallıqla keçirilib. Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən bu tədbirdə "N" hərbi hissəsinin hərbi qulluqçuları da iştirak ediblər. Onlar bu məqsədlə müəyyənləşdirilmiş ərazidə ağaclar əkiblər.

**Rəşid HÜSEYNOV,**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# “Ən yaxşı rabitə bölüyü” adı uğrunda yarış keçirilib



2024-cü ilin hazırlıq planına əsasən, "N" hərbi hissəsində "Ən yaxşı rabitə bölüyü" adı uğrunda yarış keçirilib.

Şəxsi heyətin bilik və bacarıqlarının artırılması, müasir rabitə avadanlıqlarının imkanlarının dərindən mənimsənilməsi, eləcə də döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən yarışda rabitə bölmələrinin hazırlığı yoxlanılıb.

Hərbi qulluqçulara sıra baxışı keçirildikdən sonra onların nəzəri, praktiki bilikləri və fiziki hazırlıqları üzrə məqbullar qəbul edilib.

Yarışın yekununda "Ən yaxşı rabitə bölüyü" adına layiq görülən bölmə müəyyən edilərək mükafatlandırılıb.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun hərbi qulluqçusu Çində keçirilən kursu müvəffəqiyyətlə bitirib



Azərbaycan Ordusunda hərbi qulluqçuların döyüş hazırlığının yüksəldilməsi, onların peşəkarlığının artırılması daim rəhbərliyin diqqət mərkəzindədir. Bu istiqamətdə görülən işlərin nəticəsidir ki, ordumuz gündən-günə güclənir. Bu günlərdə "U.S. News and World Report" jurnalında dərc olunan ən güclü orduların reytinqi cədvəlinə əsasən, Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasında 29-cu yerdədir. 44 günlük Vətən müharibəsində əldə etdiyimiz qələbələr, hərbi arsenalımızın yenilənməsi, daha müasir tələblərə cavab verən silahsursatın alınması, eləcə də ordumuzun peşəkar hərbçilər ilə komplektləşdirilməsi Azərbaycan Ordusunu güclülər sırasına yüksəldən səbəblərdən biridir. Hərbçilərimiz mütəmadi olaraq ölkə daxilində və xaricdə keçirilən müxtəlif təlim və kurslara cəlb edilirlər. Bu da öz növbəsində onların peşəkar hərbçi kimi formalaşmasına kömək edir.

Azərbaycan Ordusunu ölkə xaricində layiqli təmsil edən hərbçilərimizdən biri də müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Zaur Məmmədovdur. Çin Xalq Respublikasının Xiaogan şəhərində təşkil olunan "Jumpmaster and pathfinder (Paraşütlə atılma və yönləndirmə)" kursunu müvəffəqiyyətlə bitirib.

"Bu kurs mənə yalnız fiziki cəhətdən güclənmək deyil, eyni zamanda, komanda işi və strateji düşüncə bacarıqlarımı inkişaf etdirmək imkanı da verdi", - deyən baş çavuş Z.Məmmədov söhbətə başladı. "Çin Xalq Respublikasının Xiaogan şəhərində yerləşən Çin Paraşütçü Təlim Mərkəzində "Jumpmaster and pathfinder" kursu dünyanın ən qabaqcıl paraşütçü təlim proqramlarından biridir. Kursda iştirakçılara paraşütlə atılma əməliyyatlarında rəhbərlik etmə, hava ilə atılan yüklərin düzgün yerə yönləndirilməsi və axtarış-xilasetmə əməliyyatlarının həyata keçirilməsi üzrə təlim keçirilir. Kursda iştirak edərək praktik atlamalar, kiçik yüklərin hava ilə atılması və yer-hava komanda və yönləndirmə mövzularında biliklərimizi, paraşüt atlamalarının koordinasiyası və müvafiq ərazilərdə təhlükəsiz əməliyyatlar aparma bacarıqlarımızı inkişaf etdirdik".



Söhbət əsnasında öyrəndim ki, bu, baş çavuş Z.Məmmədovun xaricdə iştirak etdiyi ilk kurs deyil. Bundan əvvəl o, Türkiyə Respublikasının Kayseri şəhərində keçirilən "Paraşüt təməl kursu"nu da ikincilik ilə bitirib. "Məlumdur ki, dünyada bütün sahələrdə olduğu kimi, hərbi sahə də gündəngünə yenilənir və yeni tələblər meydana çıxır. Mütəmadi olaraq yeni silah və texnikalar ordumuzun arsenalına əlavə edilir. Hərbi əməkdaşlıq çərçivəsində dünyanın müxtəlif ölkələrində keçirilən təlimlərdə iştirak edən şəxsi heyət müasir dövrün tələblərinə uyğun olaraq yeni hərbi biliklərə yiyələnirlər. Çin Xalq Respublikasında keçirilən bu kurs da digər ölkələrin hərbi təcrübəsindən yararlanmağımız, həmçinin 44 günlük Vətən müharibəsi zamanı qazanılan təcrübənin iştirakçı ölkələrin hərbçiləri ilə bölüşməyimiz üçün mühüm vasitə oldu. Burada Qazaxıstan, Tacikistan, Misir, Nigeriya və digər ölkələrin hərbçiləri ilə qarşılıqlı əlaqədə müxtəlif epizodlardan ibarət tapşırıqların icrasında iştirak etdik. Uğurlarımız bundan sonra da davam edəcək. Üçrəngli bayrağımızı bundan sonra da qürurla dalğalandırmaqla komandanlığın və xalqımızın bizə olan etimadını layiqincə doğruldacağıq", - deyə baş çavuş Z.Məmmədov bildirdi.

Sonda hərbçimizi kursu müvəffəqiyyətlə bitirməsi münasibətilə təbrik edib, ona gələcək xidmətində uğurlar arzuladıq.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

*Fiziki hazırlıq*

# "Fiziki hazırlıq güclü ordu üçün əsas şərtdir"



*Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə bütün sahələrdə olduğu kimi idman sahəsində də kökündən dəyişikliklər oldu. İdmanın və bədən tərbiyəsinin inkişafı dövlət siyasətinin prioritet məsələlərindən birinə çevrildi, bu sahədə yüksəlişin əsası qoyuldu.*

Ulu Öndərin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli siyasət strategiyası bu gün onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən inamla davam etdirilir. Dövlətimizin başçısının diqqət və qayğısı idmançıları daim yeni qələbələrə səsləyir.

Heç şübhəsiz, hərbi xidmət dövründə də ən önəmli məqamlardan biri şəxsi heyətin sağlamlığıdır. "İdman sağlamlıqdır!" devizi altında idmanla məşğul olmaq hərbi qulluqçularımızın fiziki dözümlülüyünü və hazırlığını gücləndirir, onların hərbi tapşırıqları daha yüksək səviyyədə yerinə yetirməsinə imkan verir. Hərbi hissələrdə keçirilən fiziki hazırlıq dərsləri və yarışlar şəxsi heyətin döyüş qabiliyyətini artırır, onları fiziki və mənəvi cəhətdən möhkəmləndirir.

"N" hərbi hissəsində əsgərlər məşğələ rəhbərinin nəzarəti altında idmanla məşğul olurdular. Onlar çalışmanın şərtlərinə uyğun idman hərəkətlərini nizamla yerinə yetirirdilər. Şəxsi heyətin hərəkətləri böyük həvəslə və sinxron şəkildə icra etməsi göz oxşayırdı. Məşğələ rəhbəri Arif Niftəliyev orduda idmana ayrılan diqqətin əsgərlərin hazırlığında nə qədər vacib olduğunu və bu sahədə tətbiq olunan məşğələlərin şəxsi heyətin dözümlülüyünü və çevikliyini artırdığını vurğuladı: "Bizim əsas məqsədimiz orduda fiziki hazırlığın yüksək səviyyədə olmasını təmin etməkdir. İdman məşğələləri əsgərlərə fiziki güc qazandırmaqla yanaşı, onların ruh yüksəkliyini, gücünü artırır. Biz burada əsgərlərimizin həm sağlam, həm də intizamlı olmasını təmin edirik".

Şəmkir rayonundan olan əsgər Hüseyn Allahverdiyev sərbəst güləş üzrə birinci dərəcəli idmançıdır. Hərbi xidmət dövründə də fiziki hazırlığını yüksək səviyyədə qoruyub saxlayır. Hüseyn ordudakı idman məşqlərinin əhəmiyyətini vurğulayaraq bildirdi: "İdman mənim üçün yalnız fiziki hazırlıq deyil, həm də mənəvi güc mənbəyidir. İdmanla məşğul olmaq həm özümə, həm də xidmət yoldaşlarıma daha dözümlü, fiziki cəhətdən daha güclü olmaq üçün əlavə motivasiya verir. Fiziki hazırlıq məşqləri həm də verilən tapşırıqları daha yüksək səviyyədə icra etməyə imkan yaradır".

Bakı Slavyan Universitetinin məzunu, 2019-cu ildə keçirilən yeniyetmələr arasında şəhər çempionatının qalibi əsgər Böyükağa Qasımov qeyd etdi ki, hərbi hissədə keçirilən idman məşqləri şəxsi heyətin komandada birlik ruhunu artırır: "Burada hər kəs bir-birini dəstəkləyir, hərəkətləri düzgün yerinə yetirmək üçün onlar arasında həmrəylik yaranır. Vətənimizi qorumaq üçün fiziki hazırlığımızın vacibliyini başa düşürük və keçdiyimiz məşqlər bu missiyamızı daha güclü şəkildə yerinə yetirməyimizə yardım edir".





Boks üzrə 1-ci dərəcəli idmançı əsgər Habil Məmmədov bildirdi ki, 2020-ci ildə 51 kq çəki dərəcəsində Avropa ikincisi olub. "Hərbi xidmətdə idmanın əhəmiyyətini bir daha dərk edirəm. Boks mənə dözümlülük, səbir və özünəinam kimi xüsusiyyətləri qazandırıb. Orduda da bu bacarıqlarımı daha da inkişaf etdirirəm. Hər gün keçdiyimiz idman məşqləri döyüş ruhumuzu yüksəldir".

Əsgər Nüsrət Fərəcli də uşaq yaşlarından idmana maraq göstərən, hərbi xidmət dövründə də bu vərdişini davam etdirən əsgərlərimizdəndir. O, orduda idmana verilən önəmdən və bunun əsgərlər üçün nə qədər faydalı olduğundan söz açdı: "Orduda idmana bu qədər diqqətin ayrılması bizim üçün həm sağlamlıq, həm də böyük dəstəkdir. Hər gün keçirilən fiziki məşqlər dözümlülüyümüzü artırır, gücümüzü və çevikliyimizi inkişaf etdirir. Bu məşqlər sayəsində hərbi tapşırıqları daha yaxşı yerinə yetirir, özümüzə olan inamı artırırıq. İdmanın mənə qazandırdığı dözümlülük və iradə hərbi xidmətim dövründə daha da möhkəmlənir".

Heç şübhəsiz, hərbi xidmət zamanı əsgərlərin əldə etdiyi fiziki və mənəvi güc onların gələcəkdə daha da böyük uğurlar qazanmasına imkan verəcək.

**Eltun MƏMMƏDOV,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

*Əsgərin tribunası*

# Vətən sevgisinin işığı

İkinci Qarabağ müharibəsi Azərbaycanın ərazilərinin işğaldan azad edilməsi ilə nəticələndi. Bu müharibə son yüz ilin tarixi müharibələrindən biri oldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev regionda status-kvonu saxlamağa çalışan, sülh danışıqlarından yayınan Ermənistana müharibəyə qədər xatırlatmışdı ki, Azərbaycan xalqı, Azərbaycan dövləti heç zaman Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranmasına imkan verməz. Bu xəbərdarlıq Ermənistanın xarici siyasətində dünyəvi dəyişiklik yaratmalı və onu işğalçılıqdan çəkindirməli idi. Belə olmadı. Havadarlarından siyasi və hərbi dəstək alan Ermənistan yeni ərazilər işğal etmək niyyəti ilə Azərbaycan ərazilərinə müxtəlif miqyaslı hücumlarını davam etdirirdi. Azərbaycan Ordusunun hissələri bu hücumların, təxribatların qarşısını qətiyyətlə alırdı. Bəzən döyüşlərdə şəhidlərimiz də olurdu.

2020-ci il sentyabrın 27-də irimiqyaslı təxribatlar törətmək məqsədilə Ermənistan silahlı birləşmələri Azərbaycan ərazilərinə yenə hücuma keçdi, hücumun qarşısı yenə qətiyyətlə alındı. Ali Baş Komandanın döyüş əmri ilə ordu hissələrimiz əks-hücuma keçdi. Bu əmr xalqımızın gözlədiyi əmr idi. Vətən müharibəsi başladı. Döyüşən ordumuz düşmənin yaratdığı mühəndis-istehkam səddlərini dağıtdı, döyüşə-döyüşə irəlilədi. Müharibənin ilk günü bir neçə yaşayış məntəqəsi işğaldan azad



edildi. Bu qələbələr ilkin qələbələr idi. Ordumuz döyüşə-döyüşə daha böyük qələbələr qazanırdı.

Onda mən Bakı Dövlət Universitetinin tətbiqi-riyaziyyat fakültəsinin tələbəsi idim. Tələbə yoldaşlarımla döyüşlərə getməyi qərara aldıq. Dedilər ki, tələbələri aparmırıq. Müharibəni televiziyadan izləyirdik. Azərbaycan Respublikası Prezidentinin xalqa müraciətləri bizim də gündəlik cəbhə xəbərlərimizi ümumiləşdirirdi.

Oktyabrın əvvəllərində biz dərsdən çıxan vaxtlarda universitetə yaxın məhəllələrin birinə şəhid gətirmişdilər. Qrup yoldaşlarımızla tanımadığımız şəhidin dəfnində iştirak etdik. Onda bir daha əmin olduq ki, Vətən üçün yaşanılan ömür əbədiyyət ömrüdü.

Ordumuz qətiyyətlə, mərdliklə döyüşürdü. Döyüş azca səngiyəndə döyüşçü Xudayar Yusifzadənin oxuduğu mahnı əsgərlərin hamısının könlünə yatmışdı. Bir neçə gündən sonra igid döyüşçünün şəhid olması hamını qəhərləndirdi. Müharibə həm ağrılarıyla, həm də qüruruyla yaddaşlarda qalırdı...

Noyabrın 8-də Şuşa işğaldan azad edildi, noyabrın 10-da üçtərəfli bəyanat imzalandı. Azərbaycan İkinci Qarabağ müharibəsində tarixi Zəfər qazandı, torpaqlarımız işğaldan azad edildi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən, Anım Günü təsis edildi. Mən də, əsgər yoldaşlarım da şəhidlərimizi ehtiramla yad edirik. Anım Günü gələcək nəsillər üçün Vətəni necə sevməyin işığına dönəcək...

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dedikləri bizim də düşüncələrimizə hopub: "Əziz həmvətənlər, Anım Günündə bütün şəhidlərimizin xatirəsi qarşısında, Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin ruhu qarşısında bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirəm. Onların yaxınlarına, qohumlarına deyirəm ki, mən demişdim, onların qanı yerdə qalmayacaq və qalmadı. Biz onların qanını aldıq! Mən demişdim ki, biz onların qisasını döyüş meydanında alacağıq, belə də oldu. Bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib".

**Əsgər**
**Fərid HƏSƏNOV**
**"N" hərbi hissəsi,**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Redaksiyamızın poçtundan*

# "Səliqəli geyim əsgərin yaraşığıdı"

Mən anayam. Bu adın müqəddəsliyini anamın öyüdlərindən, nəsihətlərindən dərk etmişəm. Onun hər öyüdünü, hər nəsihətini yaddaşımda saxlamışam. O illərdə Ermənistanın ölkəmizə qarşı apardığı müharibə qızların, anaların ürəyini daşlaşdırmadı, Vətənə sevgisini, ordusuna sevgisini, əsgərinə sevgisini daha da artırdı. Biz də qələbələrə görə sevinirdik, şəhidlərə görə qəhərlənirdik. Biz də inanırdıq ki, ordumuz torpaqlarımızı işğaldan azad edəcək. O günü biz də səbirsizliklə gözləyirdik...

Kəndimizin yolları ötən müharibədə də çox qadalar görmüşdü, analar yüzlərlə şəhidin qarşısına bu yollarla yüyürərdilər. Vətən müharibəsində bu yollar döyüşə gedənlərə uğur yolu oldu, dönüşlərində - Zəfər yolu....

Noyabrın 9-da dan yeri söküləndən yola çıxmışdıq. Döyüşdən qayıdanlarımızı qardaş əvəzi, oğul əvəzi bağrımıza basmaq üçün.

Mən də bir ana kimi doğma yurdundan qaçqın düşən anaların sıxıntılarını öz sıxıntılarım bilirdim. Ermənilərin törətdiyi vəhşilikləri hamı kimi mən də unutmurdum, indi də unutmamışam.

Sonralar oğul bildiyim əsgərlərimizə xidmət etməyi özümə borc bildim. İşləmək məqsədilə hərbi hissəyə müraciət etdik. İstəyimi yerinə yetirdilər. Əlimdən dərzilik gəlirdi, mülki həyatda dərziliyin sirlərinə bələd idim. Məni hərbi hissəyə dərzi götürdülər. 5 ildi işləyirəm. Həm də işimi sevə-sevə işləyirəm. Zabitlər də, əsgərlər də işimdən razıdırlar. Bu razılığa görə öz işimdən özüm də razıyam. Əsgərlərimizin sökülən, yırtılan paltarlarını tikirəm, gen olan paltarlarını təlimata uyğun şəkildə əyinlərinə uyğunlaşdırıram. Bəzən müraciət edənə ana məsləhətləri də verirəm. Onlar məsləhətimi eşidirlər, onda mən də şükranlıqla əsgərlərin nizami yerişinə baxıram. Əsgərlərin hamısını səliqəli görəndə elə sevinirəm ki, elə bilirəm bu sayda oğlum belə səliqəli, belə qıvraq geyinir...



Mənim də oğlum hərbi qulluqçudur. Bununla da qürurlanıram. İnanıram ki, mənim oğluma da xidmət etdiyi hərbi hissədə belə xidmət edirlər, belə qayğı göstərirlər.

Vətən müharibəsindən sonra ordumuz daha da gücləndi, yeni hərbi hissələr tikilib istifadəyə verildi. Bu da qalib ordumuza, qalib hərbi qulluqçularımıza dövlət qayğısıdır. Onlar daha rahat, daha yüksək məişət şəraitinə malik olan hərbi hissələrdə xidmət edirlər. Mən də belə bir hərbi hissədə işləyirəm. Hər səhər işə gələndə gözucu əsgərlərimizə baxıram. Ondan sonra arxayınlıqla iş otağıma gedirəm.

Mənə müraciət edən olanda da sevinirəm - ona ana qayğısı göstərəcəyimə görə, müraciət edilməyəndə də - əsgərlərimizin səliqəli geyindiyinə görə...

Vətən müharibəsi vaxtı buradan döyüşlərə gedən maşınları, döyüş maşınlarını, döyüşçüləri, "Təcili yardım"ları görəndə ürəyim çəkilsə də, onları ana sevgisi ilə uğurlayırdım. İnanırdım ki, qalib gələcəklər, əsgər kimi getdikləri yolla qalib döyüşçü kimi qayıdacaqlar. Kəndimizin bütün anaları mənim kimi düşünürdülər...

Hərbi hissəmizdə hamı etiraf edir ki, səliqəli geyim əsgərin yaraşığıdı...

**Zeynəb ƏHMƏDOVA**
**"N" hərbi hissəsi,**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# "İşğaldan azad edilmiş torpaqlarımızda xidmət etmək qürurvericidir"

*- İşğaldan azad edilmiş torpaqlarımızda xidmət etmək qürurvericidir, - çavuş Anar Həsənov dedi. Ağdam rayonu ermənilər tərəfindən işğal ediləndə Anarın 11 yaşı vardı. Birinci Qarabağ müharibəsi illəri onun yaddaşında ağrı-acıları ilə qalıb. Erməni vandalizmi işğal etdikləri bütün yaşayış məskənlərini viran etdikləri kimi, Anargilin də evlərini yerlə bərabər edib. Minlərlə soydaşımız kimi, Anargilin də ailəsi illərlə zəhmət çəkib ərsəyə gətirdiyi ev-eşiyi tərk edərək çadırlarda yaşamağa məcbur qalıb. Elə həmin günlərdən evlərinə tezliklə qayıdacaqlarına ümidləri heç vaxt itməyib. Amma onların doğma yurdlarına qayıdacaqları gün 28 ildən sonra gerçəkləşdi.*

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Anar Həsənov on ildən artıqdır ki, sürücü vəzifəsində xidmət edir. Bacarıqlı və təcrübəli sürücü olduğu üçün hərbi hissədə hər kəs onu tanıyır. Kapitan Əmrah Nəsibli dedi ki, çavuş A.Həsənova hərbi nəqliyyat vasitəsi həvalə olunub. "Anar həm bacarıqlı sürücü kimi, həm də ona təhkim edilən avtomobili daim saz, işlək vəziyyətdə saxladığı üçün komandanlığın da rəğbətini qazanıb".

Çavuş Həsənovla hərbi hissənin avtomobil parkında görüşdük. Həmişə olduğu kimi, səfərə çıxmazdan əvvəl avtomobilin sazlığını yoxlayır, nasazlığını aradan qaldırırdı. Sürücü dedi: - Hələ kiçik yaşlarımdan avtomobilə böyük həvəsim olub. Atam da sürücü olub. İdarə etməyi də, avtomobilə vaxtlı-vaxtında texniki qulluq göstərməyi də atam öyrədib. Avtomobildə xırda bir nasazlıq səni yolda qoya bilər. Buna görə də həmişə idarə etdiyim maşını yola çıxmazdan əvvəl ciddi yoxlayıram. Sazlığına tam əmin olandan sonra yola düşürəm. Avtomobil parkında sürücü yoldaşlarım da var, onlara da həmişə idarə etdikləri texnikalara lazımi qulluq göstərmələrini məsləhət görürəm və bir çox hallarda avtomobillərin təmirində də onlara köməklik edirəm.



"Erməni işğalında qalmış torpaqlarımızı azad etmək üçün ön cəbhənin təminatı yüksək səviyyədə olmalı, bunun üçün də arxa cəbhə daha operativ fəaliyyət göstərməli idi. Burada biz sürücülərin üzərinə də məsuliyyət düşürdü. Döyüşlər zamanı olduğu kimi, həmişə çalışıram ki, verilən tapşırıqları vaxtında icra edim. Bu gün işğaldan azad edilmiş ərazilərdə xidmətimi davam etdirməkdən qürur duyuram", - deyə Anar Həsənov bildirdi.

Döyüş əməliyyatlarında iştirakına gəlincə, Anar həm Aprel döyüşlərində, həm İkinci Qarabağ müharibəsində, həm də antiterror əməliyyatında iştirak edib. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Ağdamın azad olunmasına görə" medalı ilə də təltif olunub.

Çavuş A.Həsənov həm də əsgər atasıdır. Oğlu Ayxan hazırda ordu sıralarında hərbi xidmətini uğurla davam etdirir. O da atası kimi Vətən qarşısında övladlıq borcunu şərəflə yerinə yetirəcəyini qarşısına məqsəd qoyub.

Anar yol vərəqəsini götürüb avtomobilin sazlığını nəzərdən keçirərək park növbətçisinin və texniki nəzarət məntəqəsi rəisinin razılığından sonra yola düşdü. Bu onun gündəlik həyat fəaliyyətidir. Xidməti vəzifəsini vaxtında, dəqiq yerinə yetirmək onun başlıca vəzifəsidir. O, avtomobil parkından çıxmağa tələsir. Çünki onu gündəlik həyat fəaliyyətini təmin edən tapşırıqların icrası gözləyirdi...

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# ƏÜO-da buraxılış mərasimi keçirilib




Əlahiddə Ümumqoşun Orduda növbəti "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursunun uğurla başa çatması münasibətilə buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, mərasimdə əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Məzunlara Müdafiə Nazirliyi rəhbərliyinin təbrikləri çatdırılıb. Tədbirdə çıxış edənlər kursu müvəffəqiyyətlə bitirənlərə Vətənə sədaqətlə xidmət etməyi, hərbçi şərəfini hər zaman uca tutmağı və tabeliklərində olan şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsində məsuliyyətlə çalışmağı tövsiyə edib. Onları kursu uğurla başa vurmaları münasibətilə təbrik edib, gələcək xidmətlərində uğurlar diləyiblər.

Sonra hərbi qulluqçulara sertifikatlar təqdim olunub, kurs birincisi tərəfindən yaş kötüyünə rəmzi emblem vurulub.

Buraxılış mərasiminin sonunda şəxsi heyət təntənəli marşla tribuna önündən keçib.

# MOİK təmsilçisi Tiranada keçirilən yarışda dünya çempionu olub



Albaniyanın paytaxtı Tiranada keçirilən qeyri-olimpiya çəkiləri üzrə dünya çempionatında Azərbaycan nümayəndə heyətinin tərkibində Mərkəzi Ordu İdman Klubunun (MOİK) üzvü Ülvü Qənizadə də çıxış edib.

Yunan-Roma güləşi üzrə 72 kq çəki dərəcəsində mübarizə aparan MOİK təmsilçisi 1/8 finalda Otar Abuladzeniyə (5:1), daha sonra Dominik Etlingerəyə (9:0), yarımfinalda isə çinli rəqibi Ji Lenqəyə (6:0) hesabı ilə qalib gələrək final mərhələsinə vəsiqə qazanıb.

Ü.Qənizadə həlledici görüşdə fransalı rəqibi İbrahim Qanemi 3:2 hesabı ilə məğlub edərək qızıl medal qazanıb.

Qeyd edək ki, Ü.Qənizadə 2023-cü ildə keçirilən Xorvatiyanın paytaxtı Zaqreb şəhərində keçirilən çempionatda fəxri kürsünün ən yüksək pilləsinə yüksələrək Avropa çempionu adına da layiq görülüb.

**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## İspaniyada ölümcül daşqınlardan sonra xilasedicilər itkin düşənləri axtarırlar



İspaniya xilasediciləri Valensiya bölgəsində 100-dək insanın ölümünə səbəb olan dağıdıcı daşqınlardan sonra itkin düşənləri aşkar etmək üçün su basmış əkin sahələrini və qapalı vəziyyətdə qalan avtomobilləri yoxlayıblar. Hava şəraitinin pisləşməsi ilə bağlı proqnoza görə şimalda külək xəbərdarlığı edilib.

"Reuters" agentliyi xəbər verir ki, yerli hakimiyyət orqanları indiyə qədər neçə nəfərin itkin düşdüyünü açıqlamasa da, müdafiə naziri Marqarita Robles həlak olanların sayının arta biləcəyini bildirib.

Valensiyada daşqınlar infrastruktura ziyan vurub, körpüləri, yolları, qatar relslərini və binaları dağıdıb. Məhsul korlanıb, çoxlu sayda mal-qara tələf olub.

Valensiya şəhərindən 85 km aralıda yerləşən Utyel şəhərində Maqro çayının məcrasından çıxması nəticəsində əksəriyyəti birmərtəbəli olan evlərdə suyun səviyyəsi üç metrə çatıb.

Nəqliyyat naziri Oskar Puentenin sözlərinə görə, bəzi qatar vaqonlarında cəsədlər tapılıb. Valensiya ilə Madrid arasında yüksəksürətli dəmir yolu əlaqələrinin bərpası iki-üç həftə çəkəcək.

Meteoroloqlar Valensiyanın bəzi hissələrinə səkkiz saat ərzində birillik norma həcmində yağıntı düşdüyünü, bunun da İspaniyanın sitrus meyvələrinin təxminən üçdə ikisinin yetişdiyi bölgədə əkin sahələrinin su altında qaldığını bildiriblər.

Fəlakətdən dəyən zərərin yüz minlərlə avro olduğu təxmin edilir. Hökumətin yardımla bağlı vədlərinə baxmayaraq, zərərçəkənlər bərpa işlərinə dövlət yardımı alıb-almayacaqlarından narahatdırlar.

## Rumıniyada NATO-nun təlimləri keçirilir



Rumıniyada NATO-nun "Dacian Fall 2024" (DAFA24) təlimləri keçirilir. Təlimlərdə Belçika, Lüksemburq, Polşa, Portuqaliya, Rumıniya, Şimali Makedoniya, ABŞ və Fransadan olan hərbçilər iştirak edirlər.

Təlimlərin məqsədi müttəfiq strukturlar arasında qarşılıqlı fəaliyyəti gücləndirmək, birgə hərbi əməliyyatlar keçirmək və Rumıniyada yerləşdirilmiş NATO qüvvələrinin inteqrasiyasını təmin etməkdir.

Rumıniyanın Müdafiə Qərargahının rəisi general Georgita Vlad qeyd edib ki, "DAFA24" 2025-ci ildə keçiriləcək "Dacian Spring" təlimlərinin əvvəlki mərhələsidir. O, Fransanın Rumıniyada ilk dəfə briqada səviyyəsində qüvvələr yerləşdirəcəyini vurğulayıb.

General Vlad "Gələcək il Rumıniya ordusu üçün müttəfiq formatda böyük təlimlərlə zəngin olacaq" deyərək müttəfiqlərlə birgə fəaliyyət planlarını işləyəcəklərini, hər hansı hərbi təhdidə qarşı uğurla mübarizə aparmaq üçün dəstək verəcəklərini bildirib.

## ABŞ Koreya yarımadasında qüvvələrinin sayını artıracaq



ABŞ Koreya yarımadasında qüvvələrinin sayını artıracaq.

Bu sözləri Pentaqon rəhbəri Lloyd Ostin Cənubi Koreya ilə 2+2 formatında görüşdən sonra keçirilmiş mətbuat konfransında deyib. O bildirib ki, hər iki ölkə nüvə məsləhətləşmələri vasitəsilə nüvə strateji planlaşdırma səylərini dərinləşdirəcək.

"Biz Koreya yarımadasında ABŞ-ın strateji qüvvələrinin müntəzəm iştirakını artıracağıq", - deyə Ostin bildirib.

## Ermənistan gələn il hərbi xərcləri 20 faiz artıracaq



Ermənistan hökuməti 2025-ci ildə hərbi sahəyə ÜDM-in 6 faizi qədər, yəni, 1,7 milyard dollardan çox vəsait ayırmaq niyyətindədir.

Bunu Ermənistanın maliyyə naziri Vahe Ovanisyan parlamentdə büdcə müzakirələri zamanı deyib.

Onun sözlərinə görə, gələn il ölkənin müdafiə sektoruna 664,7 milyard dram (1,7 milyard dollardan çox) ayrılacaq ki, bu da 2024-cü ildəki xərclərdən 20 faiz çoxdur. "Bu, büdcənin əhəmiyyətli hissəsini təşkil edir və bütün gücümüz burada cəmlənib", - deyə nazir bildirib.

Vahe Ovanisyan, həmçinin 2024-cü ilin sonunadək ölkədə ümumilikdə 5,8 faizlik iqtisadi artımın qeydə alınacağını, 2025-ci ildə isə bu göstəricinin 5,6 faiz təşkil edəcəyini deyib.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

## Bəhreyndə Gimnaziada İdman Oyunlarının bağlanış mərasimi keçirilib



Bəhreynin paytaxtı Manama şəhərində keçirilən Gimnaziada İdman Oyunlarının bağlanış mərasimi olub.

Tədbirdə ilk olaraq iştirakçı ölkələrin Dövlət bayraqları arenanın mərkəzinə gətirilib.

Daha sonra Bəhreynin təhsil naziri Mohammad bin Mubarak Cuma və Beynəlxalq Məktəb İdmanı Federasiyasının birinci vitse-prezidenti Yusif Belqasimi çıxış ediblər.

Rəsmi çıxışlardan sonra Gimnaziada İdman Oyunlarına rəsmən yekun vurulub.

Bağlanış mərasimi bədii hissə ilə davam edib.

Qeyd edək ki, Azərbaycan 16 növ - aerobika, bədii və idman gimnastikası, badminton, boks, kamandan oxatma, güləş, tennis, taekvondo, stolüstü tennis, qılıncoynatma, şahmat, cüdo, paracüdo, üzgüçülük və paraüzgüçülük üzrə 160 idmançı ilə təmsil olunduğu Gimnaziadanı 26-sı qızıl, 26-sı gümüş, 29-u bürünc olmaqla, ümumilikdə 81 medalla başa vurub.

## Dünya çempionu olan güləş üzrə Azərbaycan millisi Vətənə dönüb



Albaniyanın paytaxtı Tirana şəhərində keçirilən dünya çempionatında birinci yeri tutan Azərbaycanın yunan-Roma güləşi üzrə milli komandası Vətənə dönüb.

Yığma üzvlərini Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Güləş Federasiyasının nümayəndələri, media mənsubları, azarkeşlər və idmançıların yaxınları qarşılayıblar.

Qeyd edək ki, Eldəniz Əzizli (55 kiloqram), Nihat Məmmədli (63 kiloqram) və Ülvü Qənizadə (72 kiloqram) turniri qızıl medalla başa vurublar.

## Azərbaycan ağırlıqqaldıranı Avropa birinciliyində 1 qızıl, 2 gümüş medal qazanıb




Azərbaycan ağırlıqqaldıranı Ravin Alməmmədov (81 kiloqram) Polşanın Raşin şəhərində keçirilən gənclər və 23 yaşadək atletlər arasında Avropa birinciliyində 3 medal qazanıb.

İdmançı birdən qaldırmada 151 kiloqramı ram edib və bu hərəkətdə qızıl medala layiq görülüb.

Təkanla qaldırmada 187 kiloqramı başı üzərinə qaldıran atlet bu hərəkətdə gümüş mükafata sahib çıxıb. R.Alməmmədov toplam 338 kiloqram (151+187) nəticə ilə yekun sıralamada da ikinci yeri tutub.

Qeyd edək ki, Avropa birinciliyində daha əvvəl Qasım İsmayılov (67 kiloqram) bürünc medal qazanıb.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
baş leytenant
Elvin VƏTƏNDUST

Lisenziya № 361
Sifariş № 658
Nüsxə 4650